KEYFİYYƏT SİYASƏTİ

"Bakı Gəmiqayırma Zavodu" MMC (BGZ) davamlı müştəri məmnuniyyətinin şirkətin müvəffəqiyyəti üçün böyük əhəmiyyət kəsb etdiyini bilir və bu səbəbdən də bizim Keyfiyyət Siyasətimiz aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Keyfiyyət Siyasəti

BGZ müştəri məmnuniyyətinə diqqət yetirərək, vaxtında və büdcəyə uyğun keyfiyyətli "Dəniz Sənayesi Təyinatlı Məhsullar və Ofşor Mühəndislik sahəsində Xidmətlər" təmin etməklə, eləcə də müştəri gözləntilərinə cavab verməklə Xəzər regionunda dünya səviyyəli gəmiqayırma zavoduna çevrilməkdə qəti qərarlıdır.

Xidmətlərə gəmilərin, mobil və ya stasionar dəniz qurğularının və digər ixtisaslaşdırılmış gəmilərin dizaynı, təkmilləşdirilməsi, tikintisi, sınağı, konversiyası, yenilənməsi və təmiri, həmçinin ofşor qurğu və konstruksiyalarının hazırlanması daxildir.

Biz siyasətimizə sadiq qalaraq aşağıdakıları öz fəaliyyətimizdə rəhbər tuturuq:

- ISO 9001: 2015 standartının tələblərinə uyğun olaraq işləmək;
- Keyfiyyət idarəetmə sistemimizin effektivliyini və səmərəliliyini davamlı olaraq artırmaq;
- Bütün müvafiq hüquqi, qanuni, tənzimləyici və digər tələblərə riayət etmək;
- Təşkilati mükəmməlliyə və davamlı inkişafa səy göstərmək;
- Layihənin icrası müddətində və yekunlaşmasından sonra müştəri məmnuniyyətinə nail olmaq;
- Bu Keyfiyyət Siyasətini başa düşmək və ona riayət etmək üçün onu bütün işçilərə, həmçinin müvafiq maraqlı tərəflərə çatdırmaq.

Bu Keyfiyyət Siyasəti və əlaqədar məqsədlər uyğunluq və davamlı inkişafı təmin etmək üçün BGZ-nin rəhbərliyi tərəfindən həyata keçirilən təkrar baxış proseslərinin əsas tərkib hissəsi olaraq il ərzində ən azı bir dəfə nəzərdən keçirilir.

Elşad Nuriyev
İdarə Heyətinin sədri

PLC-001 Red.4
Tarix: 02 may 2024